


# Dostluğa və qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan münasibətlərdə mühüm mərhələ



*Müasir dövrdə hər bir dövlətin beynəlxalq münasibətlər sistemində layiqli mövqe tutaraq özünü bərabərhüquqlu tərəfdaş kimi təsdiqləməsi, milli maraq və mənafelərini yüksək səviyyədə müdafiə etməsi, qlobal təhdid, çağırış və risklərə adekvat cavab verməsi, diplomatik əməkdaşlıq sferasında həlledici uğurlara imza atması onun çağdaş dünya nizamının reallıqlarına uyğun xarici siyasət yürütməsindən asılıdır. Beynəlxalq hüquq prinsiplərini əsas tutaraq praqmatizmə, qarşılıqlı faydalı əməkdaşlığa əsaslanan xarici siyasətdə çoxqütblü əməkdaşlığa üstünlük verən dövlətlər qarşıya qoyduqları məqsədlərə tez bir zamanda çatırlar. Bu sahədə müsbət nəticələri təmin edən vacib amillərdən biri milli və bəşəri mənafelərin mümkün dərəcədə uzlaşdırılması, habelə dəqiq hədəflərə hesablanmış xarici siyasət prioritetlərinin müəyyənləşdirilməsidir.*

Ötən əsrin sonlarında müstəqilliyini bərpa etmiş Azərbaycan ayrı-ayrı dövlətlərlə münasibətləri məhz bu fundamental prinsiplər əsasında quraraq bərabərhüquqlu tərəfdaşa çevirmişdir. Azərbaycanın xarici siyasət kursunun formalaşması prosesi respublikada müstəqil dövlət quruculuğu prosesi ilə paralel getdiyindən rəsmi Bakı xarici siyasətini təməl prinsiplər əsasında müəyyənləşdirərək qarşıya qoyduğu məqsədlərə doğru inamla irəliləmiş, bərabərhüquqlu və qarşılıqlı hörmətə əsaslanan əlaqələrə üstünlük vermiş, ikili standartlara qarşı çıxmış, milli mənafelərini qorumuşdur. Ulu öndər Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi dövlətçilik fəlsəfəsi respublikamızın müasir dünyada xüsusi yerini müəyyənləşdirməklə beynəlxalq əlaqələrdə keyfiyyətcə yeni mərhələnin əsasını qoymuşdur. Məhz bunların nəticəsidir ki, rəsmi Bakı qonşu, hətta uzaq Şərq və Qərb ölkələri ilə də əməkdaşlıq münasibətləri qurub. Belə dövlətlərdən biri də Vyetnamdır.

Azərbaycan ilə Vyetnam arasında münasibətlər dostluq, qarşılıqlı anlaşma və beynəlxalq hüquq prinsiplərinə hörmət əsasında formalaşıb. Müxtəlif coğrafi regionlara mənsub olsalar da, ortaq ideoloji və prinsipial mövqeləri onları bir-birinə yaxınlaşdırır. 1991-ci ildə Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra iki ölkə arasında münasibətlər yeni mərhələyə qədəm qoyub. Belə ki, sovet dövründə formalaşan bu əlaqələr müstəqillikdən sonra yeni formatda davam etdirilib. 1992-ci il sentyabrın 23-də diplomatik münasibətlərin qurulması ilə əlaqələr rəsmi xarakter alıb və hökumətlərarası səviyyədə əməkdaşlıq mexanizmləri yaradılıb.

Bu gün Azərbaycan ilə Vyetnam arasında siyasi və iqtisadi əlaqələr yüksək səviyyədədir, iki ölkə arasında çoxşaxəli əməkdaşlıq xüsusilə energetika, təhsil, ticarət sahələrində və beynəlxalq təşkilatlar çərçivəsində inkişaf edirilir.

Hər iki dövlət müstəqillik, suverenlik, ərazi bütövlüyü kimi fundamental prinsiplərə sadiq qalır və bu mövzularda daim bir-birini dəstəkləyir. Hələ 1959-cu ildə Vyetnam Demokratik Respublikasının Prezidenti Xo Şi Min Azərbaycan SSR-ə səfər edib. 1983-cü ildə isə o dövrdə SSRİ Nazirlər Soveti sədrinin birinci müavini Heydər Əliyev Vyetnamda səfərdə olub. Məhz bu əlamətdar səfərlər əməkdaşlığın inkişafına təkan verib. Ulu öndər Heydər Əliyevin səfərindən sonra sovet rəhbərliyi Vyetnama iqtisadi və elmi-texniki yardım göstərib, minlərlə azərbaycanlı mütəxəssis isə ölkənin infrastrukturunun və neft sənayesinin bərpasına kömək etmək üçün Vyetnama göndərilib. Bu müddət ərzində müxtəlif səviyyələrdə nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, beynəlxalq təşkilatlarda paralel mövqelər və qarşılıqlı dəstək nümayiş etdirilməsi münasibətlərin möhkəm təməl üzərində qurulduğunu göstərdi.

Prezident İlham Əliyevin 2014-cü ildə Vyetnama dövlət səfəri və 2015-ci ildə Vyetnam Sosialist Respublikasının Prezidenti Çıonq Tan Şanqın Azərbaycan Respublikasına rəsmi səfəri münasibətlərin inkişafında yeni mərhələyə keçid üçün möhkəm zəmin yaradaraq münasibətlərdə yeni səhifə açdı.

Prezident İlham Əliyevin mayın 6-da "Vietnam News Agency" agentliyinə verdiyi müsahibədə Azərbaycan-Vyetnam münasibətlərinin inkişaf perspektivləri ilə bağlı səsləndirdiyi fikirlər hər iki ölkə üçün böyük əhəmiyyət kəsb edir. Dövlət başçımız vurğuladı ki, Azərbaycan ilə Vyetnam bir çox sahələrdə əməkdaşlıq potensialını daha dinamik şəkildə inkişaf etdirmək üçün bütün imkanlara malikdir. Bunun üçün iqtisadiyyatlarımızın gələcəkdə də şaxələndirilməsinə kömək edəcək yeni əməkdaşlıq imkanları mövcuddur.

Ölkələr arasında əlaqələrin möhkəmləndirilməsinin əsas perspektivli istiqamətlərindən biri də təhsil sahəsidir. Bu sahədə Azərbaycan ilə Vyetnam arasında əməkdaşlıq hələ sovetlər dönəmindən mövcud olub. Qoşulmama Hərəkatına üzv ölkələrin vətəndaşları üçün Azərbaycanın təklif etdiyi qrantlar və təqaüdlər çərçivəsində təhsil proqramları vyetnamlı tələbələrə də geniş perspektivlər vəd edir. Bu isə öz növbəsində Azərbaycanla Vyetnam arasında ikitərəfli təmasların möhkəmləndirilməsi imkanlarını daha da genişləndirəcək.

Hər iki ölkə BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq platformalarda bir-birinə dəstək verir.

Ölkələr arasında ticarət əlaqələri son illərdə nəzərəçarpacaq dərəcədə inkişaf edib. Əsas ticarət sahələri arasında neft-kimya məhsulları, kənd təsərrüfatı malları və dərman preparatları üstünlük təşkil edir. Azərbaycan tərəfi üçün Vyetnam Asiya bazarına çıxış nöqtəsi kimi xüsusi əhəmiyyət daşıyır, Vyetnam isə Azərbaycanı Mərkəzi Asiya və Qafqaz regionuna inteqrasiya üçün mühüm tərəfdaş kimi görür. Rəsmi Bakı Vyetnamla iqtisadi və ticari əlaqələrin inkişafına böyük əhəmiyyət verir. İki ölkə arasında son illərdə ticarət dövriyyəsi azalsa da, bu istiqamətdə geniş imkanlar mövcuddur. 2024-cü ildə əmtəə dövriyyəsinin həcmi 223,93 milyon ABŞ dolları olub. Lakin 2022-2023-cü illərdə isə ticarət dövriyyəsi 594.6 milyon və 482.1 milyon ABŞ dolları təşkil edib.

Siyasi dialoqun ən yüksək səviyyəyə çatdığını göstərən mühüm hadisələrdən biri 2025-ci il mayın 7-də Vyetnam Kommunist Partiyası Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana dövlət səfəri oldu. Bu, Vyetnamın ali siyasi rəhbərliyinin ilk dəfə Azərbaycana etdiyi yüksək səviyyəli səfər kimi tarixə düşdü.

Baş katib To Lamın Prezident İlham Əliyevlə görüşündə regional və beynəlxalq gündəlikdəki aktual məsələlər, strateji əməkdaşlıq perspektivləri, həmçinin siyasi dialoqun daha da intensivləşdirilməsi yolları müzakirə olundu. Səfər çərçivəsində imzalanan bir sıra sənədləri, o cümlədən, "Azərbaycan Respublikası ilə Vyetnam Sosialist Respublikası arasında Strateji Tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanat" gələcəkdə qarşılıqlı dəstəyin institusional əsasda davam etdiriləcəyini göstərir. Siyasi münasibətlərin inkişafı iqtisadi, mədəni və humanitar sahələrdə də əməkdaşlıq üçün etibarlı zəmin yaradır. To Lamın Bakıya səfəri zamanı əldə olunan razılaşmalar əlaqələrin dərinləşəcəyinə və yeni layihələrin icrasına başlayacağına, qarşıdakı illərdə qarşılıqlı faydalı əməkdaşlıq modelinin daha da möhkəmləndiriləcəyinə əminlik yaradır.

Görüşdə Azərbaycan-Vyetnam əməkdaşlığının müxtəlif sahələrdə, o cümlədən iqtisadi-ticari, investisiya, neft-qaz, mədəni-humanitar və başqa istiqamətlərdə gələcək inkişafı məsələləri müzakirə olunub. Baş katib diqqətə çatdırıb ki, rəsmi Hanoyun dövlətimizlə alternativ enerji istehsalı sahəsində də əməkdaşlıq etmək niyyəti var: "Vyetnamın coğrafi vəziyyəti - günəş, külək enerji istehsalına imkan verir. Buna görə də Azərbaycanın şirkətləri ekoloji cəhətdən təmiz enerji istehsalı üçün Vyetnama sərmayə yatıra bilərlər. Hazırda Vyetnamın müvafiq dövlət strukturları Azərbaycana sərmayə yatırmaq məsələsini nəzərdən keçirirlər. Qarşılıqlı investisiya yatırımı ölkələrimizin iqtisadi və siyasi əməkdaşlığını gücləndirər".

To Lam Azərbaycanın Dövlət Neft Fondunun fəaliyyətini təqdir edərək bu təcrübədən istifadə edəcəklərini, Vyetnamda faydalı qazıntılar ilə məşğul olan dövlət şirkətlər ilə yanaşı, özəl şirkətlərin də əməkdaşlığa hazır olduqlarını qeyd edib. To Lamın Azərbaycana dövlət səfəri ölkələr arasında ikitərəfli münasibətlərin və əməkdaşlığın daha da inkişafına təkan verəcək.

**Bayram SALMANOV,**
**"Respublika".**